**UOT 801.6**
**https://doi.org/10.59849/2311-8482.2025.2.41**
**QƏNİRƏ ƏSGƏROVA***

# ƏLİAĞA KÜRÇAYLI YRADICILIĞININ BƏDİİ DİL XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycanın təbiət şairi kimi tanınan ədəbi simalarından Əliağa Kürçaylı poeziyasının özünəməxsus bədii dil xüsusiyyətlərindən bəhs olunur. Bu aspektdə şairin fərqləndirici dil-üslub xüsusiyyətləri tədqiq edilir. Araşdırmadan şairin dilində istifadə olunmuş müxtəlif poetik nümunələr, onun məna yaratmaq qabiliyyəti, duyğuları oyatmaq və oxucunun estetik zövqünü formalaşdırmaq üçün necə fəaliyyət göstərdiyi məlum olur. Əliağa Kürçaylının bədii dil xüsusiyyətləri dil və sənət arasındakı əlaqənin möhkəmliyini təsdiq edir. Tədqiqatda poeziyada dilin adi istifadəsindən daha yüksək olan bədii dildə sözlərin insanın dünyagörüş və duyğularını ifadə etmək üçün əhəmiyyətli bir vasitəyə çevrilməsi şairin yaradıcılığından alınmış önümunələrlə əsaslandırılır.*

*Əliağa Kürçaylının bədii dil xüsusiyyətləri göstərir ki, şeir adi söz qoşmaq, sadəcə yazı yazmaq deyildir. O bu aktlardan daha yüksəkdə olan, sözün sərhədlərini aşan ifadə formasıdır. Bu mənada, məqalədə poeziyanın dilin daha dərin qatlarına daxil olması, dilin adi istifadəsindən kənara çıxması məsələləri ön plana çəkilir. Azərbaycan ədəbiyyatının önəmli simalarından biri kimi Əliağa Kürçaylının təbiətlə, insanın ürəyi və zövqü ilə "danışan" bir dil yaratması qeyd olunur. Şair Azərbaycanda ədəbiyyat və mədəniyyətin daha çox inkişaf etdiyi dövrdə bədii yaradıcılığı ilə tanınmış və həmin zamanda Azərbaycan ədəbi-bədii dilinin inkişafında böyük rol oynamışdır. Əliağa Kürçaylının əsərlərində bədii dilin zəngin, çoxşaxəli və orijinal xüsusiyyətləri mövcuddur. Məqalədə bu xüsusiyyətlərdən bəhs olunur. Şairin poeziya dili sözlərin şeirdə təkcə mənalarına görə deyil, həm də səsinə, ritminə və daha dərin simvolik əhəmiyyətinə görə fərqləndiyini təsdiq edir. Dilin emosional və intellektual gücə çevrilməsi, həm ənənəvi heca vəzni, həm də müasir sərbəst şeir vasitəsilə şair dünyaya, cəmiyyətə, insanlara, təbiətə münasibətini ifadə edir. Əliağa Kürçaylının yaradıcılığı poeziyanın, doğrudan da, dünyanı dərk etmək üçün qiymətli bir vasitə olduğunu göstərir.*

*Simvolik dili, ritm və obrazları vasitəsilə poeziya böyük məna kəsb edən mənbədir. Əliağa Kürçaylı poeziyasının bədii dil xüsusiyyətləri dərin emosionallıq yaratmağa, yığcam formada zəngin məna qatlarını üzə çıxarmağa imkan verir. Şairin bədii dil xüsusiyyətlərinin tədqiqi onun fəaliyyət dövrünə məxsus ədəbi dilin dərindən öyrənilməsinə zəmin yaradır.*

***Açar sözlər**: söz, dil, üslub, bədiilik, məna.*

## Aktuallıq

Azərbaycanda Əliağa Kürçaylı yaradıcılığı ədəbiyyat və ədəbi tənqid elmləri istiqamətində müəyyən qədər araşdırılsa da, dilcilik baxımından bu sahədə tədqiqatlara ehtiyac vardır.

## Metod

Araşdırmada təsviri və üslub təhlili metodundan, Əliağa Kürçaylının dil xüsusiyətlərinin fərqliliyini öyrənmək üçün müqayisə üsulundan istifadə olunmuşdur.

## Giriş

Azərbaycanda şeir bədii ifadənin fərqli bir forması kimi, minilliklər boyu inkişaf etmiş, emosiyaların, fikirlərin fərqli və təsiredici tərzdə çatdırılması yollarını ortaya qoymuşdur. Şeiri digər yazı formalarından fərqləndirən əsas cəhətlərdən biri onun dilidir. Şeirin linqvistik xüsusiyyətləri (söz seçimi, quruluş, səs nümunələri, ritm və obrazlı dil) onun həm estetik, həm də emosional təsirinin formalaşmasında mühüm rol oynayır. Şeirdə dil üzərində əməliyyat məna qatları yaradır. Azərbaycan poeziyasının dil xüsusiyyətlərini ayrı-ayrı ədəbi simaların yaradıcılığı əsasında öyrənmək onların şeir dilinə verdikləri töhfələri bildirir. Bu baxımdan, Əliağa Kürçaylının şeir dilinin araşdırılması poetik mənanın formalaşmasında dilin çoxşaxəli rolunu, eləcə də linqvistik yeniliklərin poeziyanın müxtəlif tarixi dövrlər və mədəni kontekstlər arasında inkişaf yollarını öyrənməyə kömək edir.

## Müzakirə

XX yüzil Azərbaycan poeziyasının dil-üslub keyfiyyətləri baxımından inkişafında rolu olan şairlərdən biri də Əliağa Kürçaylıdır. "Əliağa Kürçaylını, ilk növbədə, qoynunda yetişdiyi Muğan torpağı, Kür qırağı şair eləmişdi" (Nəbiyev (2004), s. 11). "Kürçaylının təbiət gözəlliklərinin tərənnümündən ibarət olan əsərlərinə yaxşı mənada əhval-ruhiyyə şeirləri demək doğru olardı" (Nəbiyev (2004), s. 12).

Şair təbiətdəki hər şeyə, hətta daşlara da həssaslıqla yanaşır. Onun 11 şeirdən ibarət “Daşlar” silsiləsi var. Silsiləyə daxil olan şeirlərin hər biri düşündürücü və mənalıdır. Şairin dilində daşlar *silah, insanın qurduğu zindan, yıxdığı məhbəs, ucaldıb uçurduğu büt, torpaqda sərhəd, Qobustanda şöhrət, insan oğlunun evi, otağı, məzarı, dəyirmanda elin dayağı, heykəldə bir xalqın vüqarı*dır. Bu ifadələr yalnız bir şeirdə daşlara verilən təriflərdir. Təsadüfi deyildir ki, professor S.Həsənova “Əliağa Kürçaylı və ədəbi dilimiz” adlı araşdırmasında şairi “daşların baş nəğməkarı” hesab edir (Həsənova S. (2017), s. 244). Daş şairin yaradıcılığında xüsusi bir mövzudur və bu mövzudakı şeirlər fərqli bir zövq və şövqlə yazılmışdır. Xalq yazıcısı İlyas Əfəndiyev şairin “Daşlar”ını “hisslərin qüvvətli təlatümündən doğan həqiqi poeziya” örnəyi sayaraq deyirdi: “…daşların lal baxışında” mən əsl insanın, həyatı çıraq kimi xalq üçün yanan insanın kədərini duydum. Daşa dönmüş fədakarlığını duydum” (https://senet.az/bloq/xatirelerde-ureklerde-yasayan-eliaga-kurcayli-vaqif-yusifli-4693). XX yüzil insanının poeziya qarşısındakı tələbini dərindən hiss edən Ə.Kürçaylının şeir dilinə təzə ahəng və ruh verməsi müasirləri tərəfindən yüksək qiymətləndirirlmişdir.

Ə. Kürçaylı bütün məqamlarda daşda nə isə gizli bir keyfiyyət, əlamət, gözəllik, zərurilik tapır və bunları sevə-sevə poetik sözlərin ixtiyarına verir. Lakin bir məqamda o, daşdan ehtiyat edir:

Daşlar bünövrədə olaydı möhkəm,
Pıtılı, kövrəyi kaş olmayaydı.
İnsan sinəsində ancaq deyirəm,
Ürəyin yerində daş olmayaydı (Kürçaylı Ə. (2004), s. 19).

Bir zaman Mikayıl Müşfiq “qart daşlara verdiyi hissdən” əl çəkmək istəmədiyini yazırdı:

Təbiət varlıdır, təbiət xəsis,
İşlədərкən onu, sən ey mühəndis,
Mən də qart daşlara verdiyim bu hiss,
Bu incə mənadan necə əl çəкim? (Müşfiq (2004), s. 128).

Lakin Azərbaycan ədəbiyyatında heç kim, Əliağa Kürçaylı qədər daşları – təbiətin bu adi parçasını qeyri-adiliklə tanıtmamış, onlara bu qədər isti münasibət bildirməmişdir. Şairin daşlar haqqındakı düşüncələri söz və ifadələrin gücü ilə fərqli-fərqli duyğular yaradıb. “Şeir gözəl, incə, dərin fikirlərdən hisslər, hisslərdən fikirlər doğuran sənət əsəridir. Gözəl şeir qəlbdə qanun cərəyanını arxasınca çəkib aparan, o cərəyanı ritmə, ahəngə, musiqiyə çevirən bir sənətdir” (Cəfər (1977), s. 13-14). Əliağa Kürçaylının “Daşlar” silsiləsi bu fikri yetərincə təsdiq edir.

Əliağa Kürçaylının bütün şeirlərində maraqlı dil materialları ilə qarşılaşmaq olar. Xalq şairi Qabil Əliağa Kürçaylının 50 illiyindəki çıxışında deyirdi: “Siz hansı mövzuda şeir yazırsınızsa-yazın, oxucuları düşündürən mətləblərə toxunur, həmin mətləbləri öz üslubunuza məxsus ustalıqla poeziya dilinə çevirirsiniz” (https://senet.az/bloq/xatirelerde-ureklerde-yasayan-eliaga-kurcayli-vaqif-yusifli-4693).

Səndən uzaq düşdüyüm gün
Ən dəhşətli bir gün idi.
Şadlıq, sevinç, nəşə-bütün
Ürəyimdən sürgün idi (Kürçaylı Ə. (2004), s. 37).

Burada “ürəyimdən sürgün” qeyri-təyini ismi birləşmə orijinallığına görə diqqəti cəlb edir.

Demə ki, yarpaqlar döndü xəzələ,
Demə, gül-çiçəklər tamam yanıbdir.
Torpaq da istəyir hərdən bəzənə,
Yox, bütün təbiət xınalanıbdır (Kürçaylı Ə. (2004), s, 359).

Şairin yaradıcılığında “təbiətin xınalanması” kimi uğurlu dil faktları çoxdur. Şeirdə ən müəyyənedici bədii dil xüsusiyyətlərindən biri metafora və simvolizmdən istifadədir. Metaforalar və simvollar adi dili daha dərin, çox vaxt mücərrəd mənalar ifadə edən vasitəyə çevirir. Metafora, ortaq keyfiyyətləri vurğulamaq üçün iki fərqli şey arasında birbaşa müqayisədir, simvolizm isə hərfi mənalarından kənarda ideya və ya anlayışları təmsil etmək üçün xüsusi obyektlərdən, rəqəmlərdən və ya rənglərdən istifadə etməyi nəzərdə tutur.

Metaforalar poeziyada xüsusi əhəmiyyət kəsb edir, şairə mürəkkəb fikirləri bir neçə sözlə çatdırmağa imkan verir. Bundan başqa, şair mürəkkəb duyğuları və ya fikirləri tək bir obrazda və ya obyektdə sıxlaşdırmaq üçün çox vaxt simvolizmdən istifadə edir. Şair tanış simvolları özünəməxsus şəkildə yenidən kontekstləşdirə bilir.

Pəncərəmə uzanana yaşıl-yaşıl əldimi?
Yarpaqlar ilk baharın salamına gəldimi?
Seyr elə bu lövhəni, doğrudan, gözəldimi?
Dayanmışıq səninlə qoşa, üzü Günəşə,
Belə ola həmişə! (https://minbirmahni.blogspot.com/2019/09/bel-ola-hmis-sark-sozumahn-sozlrilyrics.html).

Yuxarıdakı şerin dilində "yaşıl-yaşıl əl" dedikdə şair yarpaqları nəzərdə tutaraq baharı simvollaşdırır.

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər güşələr (Kürçaylı Ə. (2004), s. 118)

Şeirin səsi - ritmi, qafiyəsi, alliterasiyası və assonansı onun bədii dilinin mühüm komponentini təşkil edir. Poeziyanın musiqililiyi onun estetik keyfiyyətinin əsasını təşkil etməkdən başqa, həm də yaddaşlarda qalmasına səbəb olur. Əliağa Kürçaylı yaradıcılığında şeirin ritmi onun əhval-ruhiyyəsini və tempini təyin etməyə kömək edir, vətən, həyat mövzularını əks etdirən axarlılıq, ahəngdarlıq yaradır. Şairin vətən məhəbbəti şerin axıcı dilinə qarışıb onun əzəmət və böyüklüyünü göstərir:

Mən səndən adicə həyat istədim,
Sən məni çıxartdın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.
Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsil yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən (Kürçaylı Ə. (2004), s. 118).

Səsin digər mühüm elementi olan qafiyə sətirləri bir-birinə bağlayaraq şeirdə uyğunluq yarada bilir, oynaq tonlar təqdim edir.

Alliterasiya (samit səslərin təkrarı) və assonans (sait səslərin təkrarı) səs vasitəsilə əlavə məna qatlarını təmin etməklə yanaşı, xüsusi sözləri və ya mövzuları diqqətə çatdırır. "Vətən" şerində "s" səsinin təntənə və vəcdə hissini artırır:

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət.
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.
Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət,vüqar.
Mən də başı açıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar ((Kürçaylı Ə. (2004), s. 118).

Təsəvvür, bəlkə də, şeirin ən güclü bədii xüsusiyyətlərindən biridir. Şair oxucunun hisslərini və emosiyalarını oyatmaq üçün canlı, hissiyyatlı dildən istifadə edir. Bu təsvir şeirdəki səsləri eşitdirir, şeirdə tərənnüm olunan dünyanı tam şəkildə yaşamağa istiqamətləndirir.

Vətənin qüdrət və əzəmətini təsvir edən şair elə hisslərin yaranmasına səbəb olur ki, bu duyğu obrazları oxucuya şairin düşüncəsi ilə emosional əlaqə yaratmağa imkan verir:

Bəlkə, buna görə əzəmətlisən-
Nəyin var vermisən əsigəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən (Kürçaylı Ə. (2004), s. 118).

Təsəvvür Təsəvvür həm də mücərrəd anlayışları simvollaşdırmaq üçün bir vasitə kimi fəaliyyət göstərir. "Həyat" şeirində müxtəlif bənzətmələrlə müşayiət edilən anlayışlar bir sıra hissləri simvollaşdırır:

Kiminə laləli seyrəngah olmuş,
Kiminə quyudur, tələdir həyat.
İnsanı üyüdür dəyirman kimi,
Sonra da ələkdə ələdir həyat.

Yolları gah nurlu, gah da dumandır,
Gah bəla gətirən, gah qəm alandır.
Kiminə dalğalı bir okeandır,
Kiminə damcıdır, gilədir həyat (Kürçaylı Ə. (2004), s. 268).

Mənanın formalaşmasında şeirin quruluşu və forması da mühüm rol oynayır. Sətirlərin, misraların və qafiyə sxemlərinin düzülüşü, eləcə də poetik formanın seçimi (məsələn, heca vəznli və ya sərbəst şeir) şeirin necə oxunduğuna və anlaşılmasına təsir edə bilir. Şeirin quruluşu çox vaxt onun mövzusu ilə ayrılmaz şəkildə bağlı olur. Sərbəst şeir adi quruluşdan uzaqlaşaraq fikirlərin axınında dəyişiklik etmək üçün daha çox çevikliyə malikdir. Lakin heca vəznində yazılan şeirlərin dil gözəlliyi daha çox cəlbedicidir:

Çəmənə demə ki, göyərməyəsən,
Dağlara demə ki, qarsız qalasan.
Gözlərə demə ki, nur görməyəsən,
Ağaca demə ki, barsız qalasan (Kürçaylı Ə. (2004), s. 138).
Demə ki, bir igid qılıncsız, atsız,
Bir ellər gözəli sevənsiz olsun.
Demə ki, göl susuz, qartal qanadsız,
İnsan elsiz olsun, vətənsiz olsun (Kürçaylı Ə. (2004), s. 139).

Poetik dilin təyinedici xüsusiyyətlərindən biri onun özünəməxsus qeyri-müəyyənliyidir. Mənanı birbaşa çatdıran nəsrdən fərqli olaraq, poeziya çox vaxt müxtəlif mənaların izahının açılmasını tələb edir. Bu qeyri-müəyyənlik keyfiyyəti oxucuları mətnlə daha dərindən maraqlanmağa sövq edir, şeirə şəxsi və subyektiv münasibət göstərməyə imkan verir.

**Nəticə**

Poeziyanın bədii dil xüsusiyyətləri vasitəsilə Əliağa Kürçaylı oxucularda emosional və intellektual səviyyədə çox vaxt adi mövzuları aşan, estetik zövq yaradan əsərlər yazırlar. Şairin poetik dilinin özünəməxsus fikirləri təkcə sözlər vasitəsilə deyil, həm də onların düzülüşü, səsi və mənası ilə çatdırmaq bacarığındadır. Əliağa Kürçaylının yaradıcılığı göstərir ki, poeziya mürəkkəb duyğuları, fəlsəfi fikirləri başqa heç bir vasitənin təkrarlaya bilməyəcəyi şəkildə çatdıran bir sənət növüdür. Əliağa Kürçaylı şeirinin bədii dil xüsusiyyətləri şairin sözün mənalarını açan və duyğu oyatmaq qabiliyyətini üzə çıxarır. Bu proses dilin özünün sənət formasına çevrilməsində çox əhəmiyyətlidir. Şairin yaradıcılığında şeir dilinin estetik və emosional təsirini artırmaq sözlərin poeziyada əsas üsullarından sənətkarlıqla istifadə edilmişdir. Əliağa Kürçaylı əsərlərinin dil xüsusiyyətləri Azərbaycan ədəbi-bədii dilinin inkişafını əks etdirir.

## ƏDƏBİYYAT

1. Belə ola həmişə. https://minbirmahni.blogspot.com/2019/09/bel-ola-hmis-sark-sozumahn-sozlrilyrics.htmlCəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, Elm, 1977, 350 səh.
2. Həsənova S. (2017). Əliağa Kürçaylı və ədəbi dilimiz. Dilimiz mənəvi kimliğimizdir. Naxçıvan, Əcəmi, s. 240-250.
3. Kürçaylı Ə. (2004). Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 400 səh.
4. Müşfiq M. (2004). Seçilmiş əsərləri. Ваkı, "Şərq-Qərb", 352 səh.

5. Nəbiyev B. Səfərdən qalmayan ömür / Kürçaylı Ə. (2004). Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, s. 4-16.
6. Yusifli V. Xatirələrdə, ürəklərdə yaşayan Əliağa Kürçaylı. https://senet.az/bloq/xatirelerde-ureklerde-yasayan-eliaga-kurcayli-vaqif-yusifli-4693

***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Naxçıvan Dövlət Universiteti***
***E-mail: asgerovaganira@gmail.com***

**Ganira Asgarova**

**ARTISTIC LANGUAGE FEATURES OF LIAGHA KURCHAYLLI'S CREATIVITY**

The article discusses the unique artistic language features of the poetry of Aliaga Kurchayli, one of the literary figures known as the nature poet of Azerbaijan. In this aspect, the distinctive language and style features of the poet are studied. The study reveals the various poetic examples used in the poet's language, his ability to create meaning, how he works to arouse emotions and shape the aesthetic taste of the reader. Aliaga Kurchayli's artistic language features confirm the strength of the relationship between language and art. The study substantiates the fact that words in artistic language, which is higher than the ordinary use of language in poetry, become an important means of expressing a person's worldview and emotions with examples taken from the poet's work.

Aliaga Kurchayli's artistic language features show that poetry is not just a simple combination of words or writing. It is a form of expression that is higher than these acts, transcending the boundaries of words. In this sense, the article focuses on the issues of poetry entering the deeper layers of language and going beyond the ordinary use of language. As one of the important figures of Azerbaijani literature, Aliagha Kurchayli is noted for creating a language that “speaks” to nature, the heart and taste of man. The poet was known for his artistic creativity during the period when literature and culture were most developed in Azerbaijan, and at that time he played a major role in the development of the Azerbaijani literary and artistic language. The works of Aliagha Kurchayli contain rich, multifaceted and original features of the artistic language. The article discusses these features. The poet’s poetic language confirms that words in poetry differ not only in their meanings, but also in their sound, rhythm and deeper symbolic significance. The transformation of language into an emotional and intellectual force, through both traditional syllabic meter and modern free verse, the poet expresses his attitude to the world, society, people and nature. Aliagha Kurchayli’s creativity shows that poetry is indeed a valuable tool for understanding the world.

Through its symbolic language, rhythm and images, poetry is a source of great meaning. The artistic language features of Aliaga Kurchayli's poetry allow for deep emotionality and reveal rich layers of meaning in a concise form. The study of the poet's artistic language features creates the basis for an in-depth study of the literary language of his period of activity.

**Key words**: *word, language, style, artistry, meaning. Aliaga Kurchayli*

**Ганира Аскерова**

**ХУДОЖЕСТВЕННО-ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АЛИАГИ КУРЧАЙЛЫ**

В статье рассматриваются своеобразные особенности художественного языка поэзии Алиаги Курчайлы, одного из литературных деятелей, известных как поэт природы Азербайджана. В этом аспекте изучаются своеобразные языковые и стилистические

особенности творчества поэта. В исследовании рассматриваются различные поэтические приемы, используемые в языке поэта, его способность создавать смысл, вызывать эмоции и формировать эстетический вкус читателя. Особенности художественного языка Алиаги Курчайлы подтверждают тесную связь языка и искусства. Анализ творчества поэта показывает, как слова стали важным средством выражения мировоззрения и эмоций посредством художественного языка, выходящего за рамки обычного использования языка в поэзии.

Особенности художественного языка Алиаги Курчайлы показывают, что поэзия — это не просто набор слов или просто букв. Это форма выражения, выходящая за рамки действий и слов. В этом смысле в статье освещаются вопросы проникновения поэзии в глубинные пласты языка и ее выхода за рамки повседневного употребления. Алиага Кюрчайли, одна из важнейших фигур в азербайджанской литературе, известен тем, что создал язык, который «говорит» с природой, человеческим сердцем и вкусом. Поэт был известен своим художественным творчеством в период наивысшего развития литературы и культуры в Азербайджане, и в этот период он сыграл большую роль в развитии азербайджанского литературного и художественного языка. Творчество Алиаги Курчайлы отличается богатством, многогранностью и оригинальностью художественного языка. Эти особенности обсуждаются в статье. Поэтический язык поэта подтверждает, что слова в поэзии различаются не только по значению, но и по звучанию, ритму и более глубокому символическому значению. Будь то традиционный силлабический размер или современный свободный стих, поэт выражает свое отношение к миру, обществу, людям и природе, превращая язык в эмоционально-интеллектуальную силу. Творчество Алиаги Курчайли показывает, что поэзия действительно является ценным инструментом познания мира.

Поэзия — великий источник смысла с ее символическим языком, ритмом и образами. Художественно-языковые особенности поэзии Алиаги Курчайлы позволяют ему в лаконичной форме передать глубокую эмоциональность и раскрыть богатые смысловые пласты. Изучение особенностей художественного языка поэта закладывает основу для углубленного изучения литературного языка, характерного для этого периода его творчества.

**Ключевые слова**: *слово, язык, стиль, художественность, смысл, Алиага Курчайли*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**